Ədəbiyyat qəzeti

23 oktyabr / 2021

# *Vaqif Sultanlının hekayələr kitabı Sankt-Peterburqda yayınlanıb*




Bu günlərdə yazıçı Vaqif Sultanlının "Kül qəfəs" ("Пепельная клетка") adlı kitabı Rusiyada nəşr olunmuşdur. Sankt-Peterburqun "Super" nəşriyyatında yayınlanan kitaba müəllifin müxtəlif dönəmlərdə yazıb mətbuatda və antoloji toplularda dərc etdirdiyi "Zolaqlı yuva", "Tərs axın", "Ağ yol", "Qütb gecəsi", "Nəvai-Qumru", "Kor düyün", "Axşam günəşi", "Ada", "Yad", "İlan əfsanəsi" və başqa hekayələri daxil edilmişdir. Tanınmış yazar və tərcüməçi İnessa Lovkovanın redaktorluğu ilə nəşr olunan hekayələri rus dilinə Natəvan Xəlilova, Mədinə Eldarova, Nadir Ağasıyev, Liliya Gərayzadə və Cavid Abbaslı çevirmişlər.

Kitaba daxil edilən hekayələrin əsas mövzusu çağdaş dünyanın və yaşadığımız cəmiyyətin mənəviyyatına yoluxmuş özgələşmə, yaddaşsızlaşma, biganələşmə, mənəvi aşınma kimi ciddi sosial və əxlaqi sorunlara söykənir. Real və şərti-metaforik üslubun kəsişimində qələmə alınan yazılarda müəllif mənsub olduğu sosial mühitin əsirinə çevrilən insanların düşüncə, həyəcan, sarsıntı və iztirablarını əks etdirməyə çalışmışdır.

Qeyd edək ki, "Kül qəfəs" Vaqif Sultanlının rusdilli oxuculara təqdim olunan ilk kitabı deyildir. Bundan öncə müəllifin "Yarpaqsız budaqların yaşıl nəğməsi" (2017), "Ölüm yuxusu" (2018), "Səhra savaşı" (2019) kitabları müxtəlif nəşriyyatlarda yayınlanmışdır.

Kitabı ozon.ru, litres ru, amazon com və başqa saytlardan əldə etmək olar.